# Səməd bəy Mehmandarov: döyüş təcrübəsindən dövlətçilik dərsinə



*(əvvəli ötən sayımızda)*

**1917-ci il Fevral inqilabından sonra Rusiya ordusunda idarəetmə sistemi sürətlə deqradasiyaya uğradı. Fərarilik halları kütləvi xarakter aldı, əsgər komitələri tərəfindən komandan heyətinin səlahiyyətlərinin məhdudlaşdırılması və hətta vəzifədən uzaqlaşdırılması adi hala çevrildi. Bu proseslər peşəkar komandanlıq institutunu faktiki olaraq iflic vəziyyətinə saldı.**

**1917-ci il martın 28-də artilleriya generalı Səməd bəy Mehmandarov zabit və əsgər nümayəndələri komitəsinin qərarı ilə korpus komandanlığı vəzifəsindən uzaqlaşdırıldı. 1917-ci il aprelin 18-də o, Minsk hərbi dairəsi qərargahının sərəncamına verilərək ehtiyat zabitlər siyahısına daxil edildi. Mehmandarov 1917-ci il avqustun 7-də yaralılar üzrə Aleksandr komitəsinin üzvü təyin olundu. Həmin ilin sonlarında hərbi xidmətdən ayrılaraq Vladiqafqazda, dostu polkovnik-leytenant İrzabəy Axundovun malikanəsində yaşamağa başladı. Bununla da Mehmanarovun imperiya ordusundakı uzunmüddətli xidməti başa çatdı.**

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Mehmandarov yeni milli hökumət tərəfindən dövlət xidmətinə dəvət olundu. 1918-ci il noyabrın 1-də Nazirlər Şurasının qərarı ilə Hərbi Nazirlik təsis edildi. Nazir portfeli Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə həvalə edildi, Səməd bəy Mehmandarov isə onun müavini təyin olundu. Faktiki olaraq milli ordunun planlı şəkildə formalaşdırılması prosesi məhz bu tarixdən başlandı.

1918-ci il noyabrın 15-də Mehmandarovun əmri ilə Baş Qərargahın və Hərbi Nazirliyin Katibliyinin təşkili prosesinə başlanıldı. 1918-ci il dekabrın 25-də isə o, hərbi nazir vəzifəsinə təyin edildi və ordunun quruculuq prosesinə birbaşa rəhbərlik etməyə başladı. 1918-ci il noyabrın 17-də Müttəfiq dövlətlər adından Bakıya daxil olan ingilis qoşunlarının komandanlığı Azərbaycan hərbi hissələrinin və Hərbi Nazirliyin Bakıdan çıxarılmasını tələb etdi. Bununla əlaqədar nazirlik Gəncəyə köçürüldü və 1919-cu ilin ortalarınadək fəaliyyətini orada davam etdirdi. Mehmandarovun təşəbbüsü ilə Gəncə hərbi məktəbinin bazasında əvvəlcə Praporşiklər məktəbi, daha sonra Hərbiyyə məktəbi yaradıldı. Eyni zamanda İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi və Şuşa hərbi-feldşer məktəbi fəaliyyətə başladı. Bu addımlar milli zabit korpusunun sistemli şəkildə hazırlanmasına xidmət edirdi.

1919-cu il yanvarın 3-də Mehmandarovun əmri ilə Silahlı Qüvvələrin strukturunun, ştat cədvəllərinin və maaş sisteminin hazırlanması üçün xüsusi komissiya yaradıldı. Ordunun təşkilində yerli şərait nəzərə alınmaqla, keçmiş Rusiya ordusunun struktur modeli, komplektləşdirmə və döyüş hazırlığı prinsipləri əsas götürüldü. Həmin il yanvarın 10-da Hərbi Şura təsis edildi. Bu qurum hərbi qanunvericilik, dislokasiya, təchizat, təlim və şəxsi heyətin tərbiyəsi məsələlərinin hazırlanmasına cavabdeh idi. Milli ordu Mehmandarovun birbaşa rəhbərliyi altında formalaşdırıldı.

İngilis qoşunlarının Bakıda davranışları ilə bağlı o, baş nazir Nəsib bəy Yusifbəyliyə məktub ünvanlayaraq, Birinci Dünya müharibəsi illərində Böyük Britaniya tərəfindən verilmiş ordenlərinin geri qaytarılması məsələsini qaldırmışdı. Bu addım onun milli suverenlik məsələlərində prinsipial mövqeyini göstərirdi.

Mehmandarovun əmri ilə orduda əsas komanda dili Azərbaycan türkcəsi elan edildi. Hərbi salamlaşma, andiçmə mərasimi və marşların ifası bu dildə aparılmalı idi. Dili bilməyən zabitlər üçün xüsusi tədris tədbirləri nəzərdə tutuldu. O, milli-tarixi rəmzləri əks etdirən döyüş bayraqları və hərbi geyim formalarının layihələrini də təsdiqlədi.

1919-cu il fevralın 25-də parlamentdə çıxış edən Mehmandarov imkanlı ailələrin övladlarının xidmətdən yayınmasını sərt tənqid etdi. Onun təşəbbüsü ilə çağırış və səfərbərlik sistemində islahat aparıldı, fərariliklə mübarizə gücləndirildi, daxili işlər orqanları ilə əlaqələr artırıldı. Eyni zamanda xidmət şəraitinin yaxşılaşdırılması, maddi-texniki təminatın möhkəmləndirilməsi və döyüş hazırlığının yüksəldilməsi istiqamətində kompleks tədbirlər görüldü. Ordunun çevik idarəetmə strukturu formalaşdırıldı və konkret hərbi-siyasi şəraitə uyğun təkmilləşdirildi.

Mehmandarov və Baş Qərargah rəisi Məmməd bəy Sulkeviçin imzaladıqları 157 saylı əmrlə Baş Qərargahın general-kvartirmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradılmışdı. 1919-cu il aprelin 2-də o, Nazirlər Şurası sədrinə ünvanladığı məktubda hərbi əks-kəşfiyyatın əsas vəzifəsinin dövlət daxilində hərbi casusluqla mübarizə olduğunu, bolşevizmlə mübarizənin isə ümumdövlət səviyyəsində həll edilməli məsələ olduğunu vurğulayırdı.

Onun rəhbərliyi dövründə Denikin qoşunlarının hücum təhlükəsinə qarşı Bakı ətrafında və şimal sərhədlərində müdafiə sistemi qurulmuş, Lənkəran bölgəsində separatçı qüvvələrə qarşı əməliyyat planları hazırlanmış, 1920-ci ilin martında Qarabağda erməni silahlı dəstələrinin qiyam cəhdləri yatırılmış və ərazi bütövlüyü qorunmuşdur.

Səməd bəy Mehmandarov 1920-ci il aprelin 28-də XI Qırmızı Ordunun Azərbaycanı işğalınadək hərbi nazir vəzifəsində çalışmışdır.

1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Bakıda bolşevik üsyanı və XI Qızıl Ordunun hərbi müdaxiləsi başladı. Eyni vaxtda şimal sərhədindən də XI Qızıl Ordu daxil oldu. 1920-ci il aprelin 27-də bolşevik qüvvələri Azərbaycan hökumətinə və parlamentinə ultimatum təqdim edərək hakimiyyətin Azərbaycan Kommunist (bolşevik) Partiyasına təhvil verilməsini tələb etdilər. Bu vaxt sərhədi keçən Sovet Rusiyasına aid zirehli qatarlar irəliləməyə başladı və XI Qızıl Ordunun əsas qüvvələri Azərbaycan ərazilərinə daxil oldu. Hadisələr eyni vaxtda həm paytaxt Bakıda, həm də regionlarda baş verirdi, lakin hərbi hissələrin davranışı fərqli xarakter daşıyırdı. Sərhədi keçən zirehli qatarlar yerli müqavimətlə qarşılaşsa da, bu müqavimət nisbi olaraq zəif idi.

1920-ci il aprelin 27-də Səməd bəy Mehmandarov qərb cəbhəsinə - Azərbaycan ordusunun əsas bölmələrinin yerləşdiyi mövqelərə - teleqram göndərərək vəziyyətin kritik olduğunu bildirdi:

"Bolşeviklər Yalama stansiyasına hücum ediblər, irəliləyirlər, Xudatı ələ keçiriblər, vəziyyət kritikdir. Qazaxdan və Gəncədən hər birində 500 nəfərdən az olmayan, pulemyotlarla təchiz olunmuş batalyonu Qızılburuna göndərməyi əmr edirəm; hərəkət heyəti artıq hazırdır. Yola düşmə vaxtını teleqrafla bildirin, batalyonların sabah gəlməsini gözləyirəm".

1920-ci il aprelin 28-də Gəncədən hərbi nazirə teleqrafla məlumat çatdırıldı ki, Ağstafa və Gəncə stansiyalarından gecə saat 1-də pulemyot rotası ilə batalyonlar yola düşəcək. Lakin Bakıda vəziyyət fərqli inkişaf edirdi. Bəzi hərbi hissələr üsyançıların tərəfinə keçmişdi. "Yardım Alayı" adlanan polk şəhərin bir neçə məhəlləsini ələ keçirdi. Zavokzal rayonunda isə 5-ci artilleriya batareyası və süvari dəstəsi döyüşsüz üsyançılara təslim olmuşdu. Axşam saatlarında Azərbaycan Ordusunun 7-ci Şirvan piyada polku da üsyançılara qoşuldu.

Aprelin 28-də parlamentdə fövqəladə iclas açıldı. Hələ müzakirələr başlamazdan əvvəl Mehmandarov çıxış edərək silahlı müqavimətin praktik olaraq mümkünsüz olduğunu bildirdi. Azərbaycan Kommunist Partiyasının üzvü A. Şahbazovun xatirəsinə görə, həmin səhər Mehmandarov hərbi qərargahda rabitəçi ilə danışarkən məlumat aldı ki, fəhlə patrulları işə gedən zabitləri saxlayır və onlara poqonlarını çıxarmağı əmr edir. Yarım saat sonra Mehmandarov qərargaha gəldi və Şahbazov onun "Mən artıq hərbi nazir deyiləm, bu gecə hökumət hakimiyyəti fəhlə-kəndli hökumətinə təhvil verib" dediyini eşitdi.

Təcrübəli hərbçi olaraq Mehmandarov şəhərdəki vəziyyəti və Bakı qarnizonunun mövqelərini diqqətlə qiymətləndirdi. O, qan tökülməsinin qarşısını almaq məqsədilə, Baş Qərargah rəisinin səlahiyyətlərini müvəqqəti icra edən general-mayor Əbdülhəmid Qaytabaşı ilə birlikdə 237 saylı əmri imzaladı. Əmrə əsasən, hərbi hissələrdə, qərargahlarda və Hərbi Nazirliyə aid qurumlarda işlər indiyə qədər olduğu kimi davam etməli, yeni hakimiyyətə təhvil verilməlidir.

Səməd bəy Mehmandarov sonuncu əmrində zabit və əsgərlərə xidmətlərinə görə təşəkkür etmiş və Azərbaycan Ordusunun şəxsi heyətinin "yeni hakimiyyət dövründə də hamımıza əziz olan Azərbaycan üçün şərəflə və igidliklə xidmət edəcəklərinə" inamını ifadə emiş və "Allahdan bunu diləyirəm" sözlərini əlavə etmişdir.

Sonradan aviasiya marşalı olacaq Sergey A. Krasovski Mehmandarovun davranışını Azərbaycan parlament üzvlərinin Gürcüstana mühacirət etməsi ilə müqayisə etmiş, onun xalqına sədaqətlə xidmət etdiyini və hərbi təcrübəsini yeni qurulan Qızıl Orduya həsr etmədiyini vurğulamışdır. Bununla da Mehmandarov hərbi bilik və təcrübəsinə, taktiki düşüncəsinə əsaslanaraq qanunsuz silahlı qarşıdurmanın qarşısını almış, ordunun nizami hissələrinin və şəhər əhalisinin təhlükəsizliyini təmin etmiş və milli ordunun nüfuzunu qorumuşdur.

*(ardı var)*

**Gülşən HÜSEYNOVA**
*AHTM-in əməkdaşı, ADMİU-nin müəllimi*